# Xalqın xidmətində




Bugünkü Azərbaycan ulu öndər Heydər Əliyevin layiqli davamçısı cənab İlham Əliyevin Prezidentlik dövrünün böyük uğurlarının təməl prinsiplərinin təhlili və ölkəmizin davamlı inkişafı üçün ölkə rəhbərinin dövlətçilik kursunun alternativsizliyinin ictimaiyyət tərəfindən təsdiqlənməsi və dəstəyilə səciyyələnir. Başqa sözlə, İlham Əliyevin Prezidentlik dövrü həm də ulu öndər Heydər Əliyevin "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıracaqdır" tövsiyəsinin tarixi təsdiqinin bariz ifadəsidir.

Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramlarının qəbul edilməsi və onların reallaşdırılması ölkəmizdə insanların həyat səviyyəsini yüksəltmiş, gündən-günə genişlənən tikinti-quruculuq işləri respublikamızın simasını daha da müasirləşdirmişdir. Görülən işlər öz miqyası və məzmununa görə o qədər parlaq yə inkaredilməzdir ki, onlar dünya ictimaiyyətinin, nüfuzlu siyasi liderlərin, dövlət başçılarının, müxtəlif beynəlxalq iqtisadi-maliyyə qurumları nümayəndələrinin, kütləvi informasiya vasitələrinin də diqqətini cəlb etmişdir. Bu mənada nüfuzlu Amerika konqresmeninin cənab İlham Əliyev haqqında söylədiyi sözlər beynəlxalq ictimai fikir kimi də qəbul edilə bilər. Çünki dünyanın bir sıra dövlət və siyasi xadimlərinin buna bənzər mülahizələri kifayət qədər çoxdur: "Bir çox xalqlar arzulayırlar ki, onların da cənab İlham Əliyev kimi bacarıqlı, beş dildə danışa bilən, müxtəlif mövzulara dair geniş biliyə malik, geniş dünyagörüşlü bir lideri olsun. Hesab edirəm ki, bu baxımdan Azərbaycan xoşbəxt ölkədir, çünki bu ölkəyə İlham Əliyev kimi lider qismət olmuşdur".

Respublikamızın güclü demokratik dövlət quruculuğu istiqamətindəki inkişafında onun tarixi-mədəni kökləri ilə yanaşı, milli-mənəvi dəyərləri özündə ehtiva edən müasir siyasi baxışlar əsasında fəaliyyət göstərən dövlət başçısına malik olmasının, həqiqətən, xüsusi çəkisi böyükdür. Siyasi analitiklərin fikrincə, məhz bunun nəticəsidir ki, Azərbaycanın yeni dövlətçilik prinsiplərində Şərqlə Qərbin qarşılıqlı təmasları və bu təmaslarda müxtəlifliyin vəhdətinin müdriklik əmsalı qabarıq nəzərə çarpır.

Müasir Azərbaycan və onun dövlət başçısı haqqında beynəlxalq ictimaiyyətdə formalaşmış ictimai-siyasi fikir cənab İlham Əliyevin rəhbərliyi altında Respublikamızın istər beynəlxalq dövlətlərarası münasibətlər sistemində, istərsə də ölkə daxilindəki sabitlik, regionda əmin-amanlığın qorunub saxlanılması istiqamətində əldə etdiyi nailiyyətlərə əsaslanır. Cənab İlham Əliyevin Prezidentliyi dövründə Azərbaycanın Avropa Birliyi, Avropa Şurası, NATO, ATƏT, İƏT, Qoşulmama Hərəkatı kimi beynəlxalq qurumlarla qarşılıqlı faydalı münasibətləri keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir. Onun ciddi səyləri və praqmatik diplomatiyası nəticəsində Azərbaycanın Qərb və Şərq ölkələrilə həm siyasi-iqtisadi, həm də qarşılıqlı mədəni münasibətlər sistemi qurulmuş, ölkəmizin milli maraqlarına xidmət edəcək real istiqamətlər formalaşdırılmışdır.

Azərbaycan xarici siyasət sahəsində də çoxtərəfli münasibətlər sistemi yaratmağa nail olmuşdur. Buna görə də dövlətimiz hazırda dünyanın əsas siyasi qüvvələri tərəfindən təkcə Qafqazda deyil, daha geniş geosiyasi arealda pozitiv rol oynaya biləcək perspektivli tərəfdaş kimi qəbul edilir.

Dövlətimizin dünya enerji təhlükəsizliyi sahəsində götürdüyü beynəlxalq öhdəliklərə sədaqəti dünya ictimaiyyətinə, xüsusilə də siyasətçilərə yaxşı məlumdur. Bu tipli qlobal məsələlər dövlət başçısından analitik təfəkkür, strateji hədəfləri duymaq tələb edir, bunlar olanda, ölkənin həm daxili, həm də xarici siyasəti tarazlı aparılır, fövqəldövlətlərin maraqları toqquşarkən dövlət və millət öz dövlətçilik maraqlarını hifz etməyə qüdrətlənir.

Hazırda dövlət quruculuğu məsələlərində multikulturalizm amillərini irəli çəkmək, cəmiyyətdə tolerantlığa nail olmaq beynəlxalq dünyanın diqqət mərkəzindədir. Ölkəmizdə də buna xüsusi diqqət yetirildiyindən, dövlət siyasəti bu istiqamətdə aparıldığından respublikamız beynəlxalq mədəniyyətlərarası və dinlərarası dialoqun məkanına çevrilmişdir.

Bu istiqamətdə cənab Prezidentin nüfuzlu beynəlxalq kürsülərdən söylədiyi cəsarətli və ölçülüb-biçilmiş çoxsaylı çıxışları dövrün tələbi, həyati vacib problemidir.

Azərbaycanın sosial-iqtisadi tərəqqisi, həqiqətən, qürurvericidir. Bunu ölkə həyatının bütün sahələrində müşahidə etmək mümkündür. Ötən dövr ərzində dövlət büdcəsi on iki dəfədən çox artmışdır, valyuta ehtiyatlarımız çoxalmışdır. Özəl sektor stabil olaraq genişlənməkdə, ölkədə minlərlə yeni iş yerləri açılmaqdadır, sevindirici haldır ki, bu proses davam edir. Yüzlərlə sənaye və emal müəssisələri, kənd təsərrüfatının, bütövlükdə aqrar sektorun davamlı inkişafı reallıqdır. Bütün sahələrdə dinamik inkişaf vardır. Abadlıq-quruculuq işləri bir an səngimir paytaxt Bakı daxil olmaqla bütün regionlarda beynəlxalq standartlar səviyyəsində təhsil müəssisələri, səhiyyə ocaqları, ictimai-iaşə obyektləri tikilərək əhalinin istifadəsinə verilmişdir. Bu gün beynəlxalq standartlara uyğun avtomobil yolları, yol qovşaqları, körpülər, neçə-neçə sosial obyektlər əhalinin rahatlığına xidmət edir. Əmək haqları, müavinətlər, əmək pensiyaları mütəmadi olaraq artırılır.

Cənab İlham Əliyevin hələ 2003-cü il prezident seçkiləri ərəfəsində dediyi "Yaxın beş il ərzində Azərbaycanda sosial məsələlər öz həllini tapacaq, beynəlxalq standartlara cavab verəcək yeni infrastruktur yaranacaq, 600 min yeni iş yerləri açılacaq" sözləri bu gün artıq həllini tapmışdır. Bütün bunlar bir daha təsdiqləyir ki, cənab İlham Əliyev, həqiqətən, hər bir Azərbaycan vətəndaşının Prezidentidir.

Azərbaycanda neft və qaz nəqlinin alternativ variantlarının yaradılması, iqtisadiyyatın şaxələndirilməsi siyasətinə üstünlük verilməsi, özəl sektorun dinamik inkişafı üçün güzəştli yardımlar və dövlət qayğısı ölkə başçısının siyasi - iqtisadi inkişaf kursunun, ən qısa müddətdə reallaşmasına ölkəmizin müstəqilliyinin, iqtisadi azadlığının güclənməsinə yönəldilmişdir.

Dövlət başçısının rəhbərliyi altında ölkənin sosial-iqtisadi inkişafı ilə bağlı Dövlət proqramlarının qəbul olunması və ölkənin hər yerində yüksək əmək coşqunluğu ilə icra edilməsi bütün bu deyilənlərin təsdiqidir. Bu baxımdan həmin nailiyyətləri geniş oxucu kütlələri arasında təbliğ etməyə də xüsusi ehtiyac vardır.

Pedaqogika üzrə fəlsəfə doktoru, "Həsən bəy Zərdabi", "Qızıl qələm" mükafatları laureatı, İlham Pənahovun "10 il xalqın xidmətində" adlı növbəti irihəcmli kitabının nəşrində də əsas məqsəd bundan ibarətdir.

Müəllifin yeni kitabında qarşıya qoyulan vəzifə respublikamızın sosial-iqtisadi inkişaf üzrə Dövlət proqramlarının regionlarda həyata keçirilməsi prosesi və onların uğurlu nəticələri barədə oxuculara geniş məlumat verməkdən ibarətdir. Kitabın əhatəsi yalnız regionlarla məhdudlaşmır, ölkə Prezidentinin rəhbərliyi ilə dövlətimizin son illərdə aparılan uğurlu xarici siyasətə və onun pozitiv nəticələrinə diqqət cəlb edilir.

Uzun müddətdir ki, "Respublika" qəzetində çalışan İlham Pənahov jurnalistlik fəaliyyəti dövründə dövlətimizin sosial-iqtisadi sahədəki siyasətinin təbliği işində fəal iştirak edir, onların yerinə yetirilməsinin gedişi barədə mətbuatda çıxışlar edir, kitablar yazıb nəşr etdirir. Müəllif yeni kitabında da yaradıcılıq kredosuna sadiq qalaraq Prezident İlham Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi altında yaranan, uğurla həyata keçirilən ölkənin sosial-iqtisadi inkişafı üzrə Dövlət proqramlarının uğurlu icrasına işıq salmışdır.

Müəllifin publisistik yaradıcılığında regionlarımızın bu günü və sabahı xüsusi yer tutur. Ona görə də İ.Pənahovun yeni kitabında ayrı-ayrı əmək kollektivlərinin, qabaqcıl insanların əməli fəaliyyətlərindən geniş söz açılır, onların ölkədə aparılan geniş quruculuq işləri barədə səmimi söhbətləri ətraflı təqdim olunur. Ölkə vətəndaşlarının, o cümlədən regionların sosial-iqtisadi inkişafı, əhalinin sosial rifah halının durmadan artırılması istiqamətində dövlət qayğısı, həyatın müxtəlif sahələrində görülən möhtəşəm işlər haqda obyektiv fikirlər yüksək jurnalist peşəkarlığı ilə geniş oxucu auditoriyasına çıxarılır.

Müəllifin müşahidələri əsasında ərsəyə gələn bu yazılar təbii və koloritlidir. Publisistik həqiqət müəllifin üslubuna əyanilik, konkretlik səciyyəsi qazandırdığından kitab maraqla oxunur.

Təqdirəlayiq haldır ki, İ.Pənahov fikir və mülahizələri konkret faktlar və rəqəmlər əsasında qurur, buna görə də hər bölgənin, təşkilatın, hər bir əmək kollektivinin zəhmətinin nəticələri oxucuda gələcəyə inam hissi oyadır.

Gələcəyə inamın ən böyük təminatı isə xalqla dövlət başçısı arasında birlik və həmrəylikdədir. Bu məntiq İlham Pənahovun yeni kitabının əsas qayəsidir.

**Ziyəddin MƏHƏRRƏMOV,**
**Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti, filologiya üzrə fəlsəfə doktoru.**